# FİRİDUN BƏY KÖÇƏRLİNİN PUBLİSİSTİK İRSİ

**UOT 070**



**ABDULLAYEVA SEVİL ELMAN QIZI**

*ADMİU, Kulturologiya fakültəsi, Kitabşünaslıq ixtisası, III kurs tələbəsi*

**Açar sözlər:** F.B. Köçərli, nəşr, məqalə, qəzet, jurnalistik fəaliyyət.
**Ключевые слова:** Ф. Б. Кочерли, публикация, статья, газета, публицистическая деятельность.
**Keywords:** F. B. Kocherly, publication, article, newspaper, publisistic activity.

XIX əsrin sonlarından etibarən Azərbaycan türklərinin milli varlığını bütün dünyaya tanıtmaq məqsədilə fəaliyyətə başlayan Firidun bəy Köçərli elm və ədəbiyyat xadimləri sırasında xüsusi yer tutan şəxsiyyətlərdəndir. Azərbaycan ədəbiyyatşünaslığının yaradıcısı, ədəbiyyat tarixinin sistemli tədqiqatçısı, təbliğatçısı, publisist, ədəbi əlaqələr mütəxəssisi kimi qiymətləndirilən ədib Azərbaycan XIX əsr ədəbi irsinin ilk elmi tarixini yaratmaqla, tədqiqatlarına M.F.Axundovla başlayaraq, onun maarifçi realist sənət nəzəriyyəsinin davamçısı və layiqli varisi kimi meydana çıxmışdı.

Firidun bəy Köçərli irsinin tədqiqatçısı, akademik B.Nəbiyevin sözlərinə görə, "Köçərlinin ədəbiyyatımızın Füzuli, Vaqif, M.F.Axundov, Zakir, S.Ə.Şirvani kimi görkəmli simalarının yaradıcılığına həsr edilmiş tədqiqatı onun Azərbaycan ədəbiyyatına çox gözəl aşina olduğunu göstərir. Vaqif, Vidadi, Nəbati, Zakir və bir sıra başqa Azərbaycan şairlərinin tərcümeyi-hallarına dair ilk geniş məlumat, ədəbiyyatımızın və mədəniyyətimizin fəxri olan böyük M.F.Axundov haqqında birinci kitab Köçərli qələminə məxsusdur" (9, s.4).

Firidun bəy Köçərlinin ilk məqalələri İrəvan gimnaziyasında çalışdığı illərdə işıq üzü görmüşdür. Onun müxtəlif mətbuat orqanlarında çap olunmuş məqalələrinin ana xəttini xalqının mənafeyi, onun maariflənməsi kimi problemlər təşkil edirdi. "F. Köçərli dövrünün qabaqcıl bir ziyalısı kimi dünya və rus ədəbiyyatının təcrübəsindən istifadə edir, xalqın həyatında incəsənətin, ədəbiyyatın rolunu yüksək qiymətləndirirdi (5, s.379). Bu cəhətdən onun həmin illərdə

çap etdirdiyi məqalələri arasında rus yazıçı və şairlərinin həyat və yaradıcılığına həsr olunmuş məqalələri üstünlük təşkil edir. Məqalələrin bir qismi həmin yazıçıların yubileylərinə həsr edilmişdirsə, digər qismi ədəbi yaradıcılıqlarını əks etdirmişdir.

1890-cı ildə ədibin "Kəşkül" qəzetinin 20 aprel tarixli nömrəsində "İrəvandan məktub" və "Müsyo Jordan və Məstəli şah" komediyasının tamaşaya qoyulması haqqında" adlı iki məqalə, rus dilində 1892-ci ildə "Переводчик" qəzetinin 39 saylı buraxılışında "Эривань" adlı məqalə, 1894-cü ildə "Новое обозрение" qəzetinin 3624, 3629 və 3729 saylı buraxılışlarında müvaifq olaraq "Из истории ислама" adlı 2 məqalə və "Еще из истории ислама" adlı 1 məqalə, eyni adlı qəzetin 1895-ci il, 3924, 3928, 3937, 3977, 4115, 4109 saylı buraxılışlarında "Незванные гости", "О состоянии мусульманских женщин и воспитания детей", "Памяти А.О.Черняевского" və "Татарские комедии" adlı silsilə məqalələr, "Кавказ" qəzetinin 1898-ci il 230, 238 və 264 saylı buraxılışlarında "Арабская азбука и ее недостатки" adlı silsilə məqalə, "Кавказский вестник" qəzetinin 1901-ci il 5 saylı buraxılışında "Литература азербайджанских татар" və 1902-ci ildə "Тифлисский Листок" qəzetinin 113 saylı buraxılışında "Библиография" və "О фонетической восточной азбуке М.С.Шахтахтинского" olmaqla iki məqalə, 28 saylı buraxılışında "Шарки-Рус" и мусульманское духовенство", 125 saylı buraxılışında "А.П.Бурдуев" adlı məqalə işıq üzü gördü.

1903-cü ildə "Şərqi-Rus" qəzetinin demək olar ki, əksər nömrələrində F.B.Köçərlinin məqalələri nəşr edilmişdir. "Cavab" və "Bir adama cavab" adlı silsilə məqalələri, eyni zamanda "Hörmətli "Şərqi-rus" ruznaməsinə bir neçə sözlər", "Qarabağ (Şuşa) müsəlman müəllimlərinin himməti", "Qarabağdan (Şuşa), Tiflisdən şəhər məktəblərinə dərs verən müəllimlərin ictimai rəyi nədi", "Qarabağdan Zaqafqaziya darülmüəlliminin Tiflisə nəql olunması", "Müəllimlər ictimai", "17-ci nömrənin mabədi" adlı məqalələri bu qəbildəndir.

F.Köçərlinin 1903-cü ildə çap etdirdiyi "Azərbaycan ədəbiyyatı" adlı geniş həcmli məqaləsində diqqəti Azərbaycan yazıçı və şairlərinin rus yazıçılarından etdiyi tərcümələrə cəlb etdiyi vurğulanır. Buradan belə qənaətə gəlmək olar ki, həmin dövrdə artıq A. S. Puşkindən: "Dubrovski" və "Çöl xanımı" povestlərini M. H. Əfəndiyev, "Torçu və balıq", "Oleq haqqında mahnı" əsərini F. Köçərli və şairin bir çox əsərlərini Əhməd Bəy Cavanşir tərcümə etmişdilər.

Bundan əlavə ədibin "Каспий" qəzetinin 1903-cü il 262 saylı buraxılışında "Из жизни мусульманского поэта Вагифа" və "Тифлисский листок" qəzetinin 1903-cü il 245 saylı buraxılışında "Литература Азербайджанских татар" adlı rus dilində məqalələri nəşr edilmişdir.

Ədib "Şərqi-Rus" qəzeti ilə əməkdaşlığını uzun müddət davam etdirmişdir. Belə ki, 1904-cü ildə ədib tərəfindən qəzetin cari ildəki nömrələrində "Cavan müəllimlər", "Cəmiyyəti-xeyriyyə", "Ədəbiyyat. Anton Çexovun hekayələrindən", "Ədəbiyyatımıza dair məktub", "Gözəl bir kitab", "Sülh və barışıq","Təbriknamələr", "Təəssüf", "Təzə kitab (Məqalə "Otello" faciəsinin yeni nəşri münasibətilə yazılmışdır), "Üç günlük səfər" adlı məqalələri nəşr edilmişdir.

F.Köçərlinin Anton Pavloviç Çexovun vəfatı münasibətilə 16 iyul 1904-cü ildə "Şərqi-Rus" qəzetində çap etdirdiyi məqaləsində qeyd olunur ki, "təbii, mətin, qələmi ötkün və dili şirin bir ədibdir" (1, s. 92). O, qeyd edirdi ki, A. P. Çexov özünün müxtəsər və qısa hekayələrində rus millətinin hər bir sinfinin əhvalatını yazıb, eyib və qüsurlarını iztehza və kinayə ilə zərif şəkildə göstərir. Kiçik və məzmunlu hekayələrilə məişət hadisələrini yazıb, demək olar ki, onun şəklini çəkib bir tərəfdən oxucularını həm sevindirib, həm də kədərləndirib. O zaman A. P. Çexovun əsərlərinin 12 cilddə çap olunduğunu söyləyən ədib Çexovun komediyalarının da olduğunu

bildirir. Qəzetdə özünün tərcüməsində yazıçının "At familiyası" əsərinin Azərbaycan dilinə tərcüməsini də verir (1, s. 93). "Каспий" qəzetinin 1904-cü il 63 saylı buraxılışında "О естественной системе обучения" adlı rus dilində məqaləsi çap olunmuşdur.

Ədib dünyada baş verən hadisələrə biganə qalmırdı. Bunu onun məqalələrində açıq-aydın görmək mümkün idi. Belə ki, ədib 1905-ci ildə "Həyat" qəzetinin 18 oktyabr 86 saylı nömrəsində nəşr olunan "Müharibə və sülh" adlı məqalədə rus-yapon dövlətləri arasında bağlanan sülh müqaviləsi haqqında öz şəxsi fikirlərini ifadə etmişdir. Eyni zamanda ədibin "Каспий" qəzetinin 143, 144, 161 və 193 saylı buraxılışlarında müvafiq olaraq "К преподаванию местных языков в средних учебных заведениях" adlı iki silsilə məqalə, "Новый учебный план" və "Кавказский край" qəzetinin 6 saylı buraxılışında "Мусульманская духовная семинария в Тифлисе" adlı rus dilində məqalələr çap olunmuşdur.

1906-cı ildə F.B.Köçərlinin fəaliyyət sahəsi genişlənmişdir. Ədibin əməkdaşlıq etdiyi qəzetlərin sayında artım müşahidə edilmişdir. Ədibin "İrşad" qəzetində "Bir darülmüəlliminin kifayətmidir?", "Bir müəllimin bizə cəvabı (məqalə kənd müəllimlərinin öz vəzifələrini layiqincə yerinə yetirməmələri haqqında idi)", "Cavanşirdə kazakların rəftarı", "Ehtiyatlı olmaq kimə lazımdır? (Tiflisdə keçirilən erməni-müsəlman məclisi haqqında)", "Əqil əqildən ötkəm olar", "Qarabağda Cavanşir mahalının əhvalü övzasına dair" (şair Zakir haqqında), "Məişətimizə dair (bir para bəyanat)", "Məişətimizə dair: (Birtay buynuz öküz) (məqalə erməni-müsəlman qırğınından bəhs edir)", "Məişətimizə dair: Müsəlmançılıq", "Məişətimizə dair: (Qaranlıqda qalanlarımız) (Azərbaycan dövlət məmurlarının xalqa əziyyət vermələri haqqında)", "Məişətimizə dair: (Yarımçıqlarımız): "Anlayanın nökəri, anlamazın quluyam, dad yarımçıq əlindən (Azərbaycan dövlət məmurlarının ozbaşınalığı haqqında", "Məişətimizə dair: El üçün ağlayan gözsüz qalar (Haşım bəy Vəzirovun həbs olunması haqqında)", "Məişətimizə dair: Əcəlsiz ölənlərimiz (Zülfüqar bəy Hacıbəyovun dəfni və kəndlərdə həkim qıtlığı haqqında)", "Məişətimizə dair: Təlim xeyir edənlərimizin cəzası (İrəvanda rus-müsəlman məktəbinin müdiri Haşım bəy Vəzirovla ora camaatının rəncidəliyi haqqında)", "Müəllimlər ictimainə dair: İşin ibtidası (Bakıda çağırılan müəllimlər iclası haqqında)", "Müəllimlər neçün Bakıya qayıdır", "Niyə müəllimlər kəndlərdən qaçırlar?", "Şuşa faciəsinə dair (Qarabağın erməni-müsəlman iğtişaşı nəticəsində viranə qalması haqqında)" "Vətən məhəbbəti", "Yenə müəllimlər kəndlərdən qaçırlar", "Rəhbər" qəzetində "C.Ə.Nəbati", "Ədəbiyyatımıza dair", "Seyid Əbdülqasım Nəbati", "Vaqif və Vidadi və bunların dostluğu" adlı, "Açıq söz" qəzetində "İdarəyə məktub" adlı məqalələr nəşr edilmişdir.

1906-cı ilin 2 mart tarixində "İrşad" qəzetində çap olunmuş "İdarədən" adlı qeyddə məqalə haqqında belə bir informasiya verilib: "Əfəndim, bədbəxt kəndçilərimiz xüsusunda qələminizdən tökülən göz yaşları hər bir daş ürəklinin ciyərindən bir ah qoparmağa şayandır…" (1, s. 93).

Eyni zamanda ədibin "Каспий" qəzetinin 3 və 4 saylı buraxılışında "Вопросы о просвещении татар" adlı silsilə məqalələri, "Знание" qəzetinin müxtəlif buraxılışlarında "К событию Персии", "Опасение Европы", "Письмо из Елизаветпольской губернии", "По поводу закрытия "Гейта" adlı məqaləsi, "Уста Зейнал" adlı hekayəsi, "Закавказье" qəzetinin 2 saylı buraxılışında "Краткий обзор татарской периодической печати" adlı məqalə, "Тифлисский листок" qəzetinin 13 iyul buraxılışında "Молла Насреддин", "Отголоски" qəzetinin 11 və 19 saylı buraxılışlarında müvafiq olaraq "К событиям в Шуше" və "Пробуждение Персии к обьявлению персидской конституции" adlı məqalələri rus dilində dərc olunmuşdur.

1907-ci ildə F.B.Köçərli tərəfindən "Dəbistan" qəzetinin 1 saylı nömrəsində, "Rəh-

bər" qəzetinin 5 saylı nömrəsində Molla Pənah Vaqif və Molla Vəli Vidadi haqqında "Vaqif və Vidadi və bunların dostluğu" adlı məqalə işıq üzü görmüşdür. Eyni zamanda ədibin bu il rus dilində "Закавказье" qəzetinin 25, 33, 77 və 256 saylı buraxılışlarında "Гасанбек Меликов", ". К 20-летию Бакинских русско-татарских училищ", "К дню ашуры", "Некоторые сведения о вакуфных имениях" və "Мусульманский поэт Видади" adlı, "Закавказское обозрение" qəzetinin 2, 54, 65, 72 saylı buraxılışlarında "К пробуждению мусульман", "Какие науки нужны мусульманам" və "Среди мусульман. О необходимости открытия для мусульман новой учительской семинарии" adlı rus dilində məqalələr nəşr olunmuşdur.

1908-ci ildə ədib İrşad qəzeti ilə əməkdaşlığını davam etdirir, belə ki, bu il qəzetin 29 saylı 8 mart tarixli nömrəsində "Ədəbiyyatımıza dair" məqaləsi çap olunur. Bundan əlavə yazıçının 1908-ci ildə "Tərəqqi" qəzetinin 121 və 125-ci nömrələrində Gürcü şairi Akaki Seretelinin 50 illik yubileyi münasibətilə "Gürcü şairi Akaki Seretelinin yubileyinə dair" adlı məqalə, qəzetin 104, 109,115, 117, 135 və 137 saylı nömrələrində "Məişətimizə dair" adlı silsilə məqalələr çap olunmuşdur. Bu silsilə məqalələrdə ədib Azərbaycan klassiklərinin, xüsusən Qasım bəy Zakirin əsərlərindən, S.Ə. Şirvaninin "Qafqaz müsəlmanlarına xitab" şeirindən istifadə etməklə dövrün yaramazlıqlarını, ictimai ədalətsizlikləri tənqid edir. Eyni zamanda müəllif bu məqalələrdə ədəbi məsələlər haqqında maraqlı mülahizələr irəli sürür və Novruz bayramı haqqında fikirlərini qələmə alır. Eyni zamanda ədibin "Закавказское обозрение" qəzetinin 36 saylı buraxılışında "Для мусульман" və "Правда" qəzetinin 247 saylı buraxılışında "По поводу закрытия "Геята" adlı rus dilində məqalələri nəşr olunmuşdur.

Ədibin N. V. Qoqolun anadan olmasının 100 illiyi münasibətilə 1909-cu ilin mart ayının 18 və 19-da "Tərəqqi" qəzetində çap olunmuş məqaləsində bildirilir ki, A. S. Puşkin və N. V. Qoqoldan sonra digər yazıçı və şairlər gördüklərinin surətini və şəklini mahir nəqqaş kimi eynilə çəkib, bütün aləmə göstərib deyirlər" (6).

F.Köçərlinin Qoqolun "ölü canlar" ("Fövt olmuş nüfus") əsəri haqqında qeydlərində yazır: "Puşkin, Qoqol irsindən söhbət açarkən Mirzə Fətəli realizmini yada salır, oxucunun nəzərini doğma ədəbiyyatın tarixinə və bu gününə yönəldir, həyat və sənət həqiqətini ona başa salmaq istəyirdi" (5, s., 380).

F. Köçərlinin "Dünyada bəla nədən törəyir?" adlı məqaləsi "Tərəqqi" qəzetinin 26 mart 1909-cu il tarixli sayında çap edilmişdir. Ədibin L.N.Tolstoyun bu əsərinə müraciət etməkdə məqsədi insanların daxilində olan qorxaqlığı onların qəlbindən çıxarmaq, qorxuya əsas səbəb olan savadsızlığa, elmsizliyə və avamlığa qarşı mübarizə aparmaq idi.

"Həqiqi gözəllik və hərəkətsiz nisfimiz" məqaləsi də "Tərəqqi" qəzetinin 26 aprel, 29 iyul, 4 avqust 1909 -cu il saylarında çap olunmuşdur. Ədibin 1909-cu ildə publisistik fəaliyyəti bununla yekunlaşmır. Belə ki, həmin il yazıçının "Səda" qəzetinin 35, 45 və 46 saylı nörmələrində "Ədəbiyyatımıza dair" silsilə məqalələr, "Tərəqqi" qəzetinin müxtəlif nömrələrində "Məişətimizə dair" silsilə məqalələr çap olunmuşdur. Bu məqalələrdə türklərlə xaricilərin münasibətləri, müəllimlərin vəziyyəti, köçərilərin yaşayış səviyyəsi, tələbələrin vəziyyəti kimi məsələlər işıqlandırılmışdır. Bundan əlavə "Tərəqqi" qəzetinin 18, 19 mart, 14 aprel, 31 may tarixli nömrələrində yazıçının "Sənəti uğurluq üçün", "Bizə yazıyorlar. Axıskadan" və "Zaqafqaziya seminariyası" adlı məqalələri çap olunmuşdur. Ədibin "Тарагги" qəzetinin 57 saylı buraxılışında rus dilində "О русской литературе" adlı məqaləsi nəşr olunmuşdur. Ədib 1910-cu ildə "Закавказское обозрение" qəzetinin müxtəlif buraxılışlarında "К вопросу о затворничестве мусульманок", "Л.Н.Толстой и

мусульманский восток", "Мусульманка в настоящем", "Мусульманка в прошлом", "Отношение Ислама к женщинам", "По Грузии", "Татарский астроном Улугбек", "Закавказье" qəzetinin 58, 74 saylı buraxılışlarında "Среди мусульман "Ветен дили" və "Среди мусульман: К рецензии гос. Ширванского на учебник "Ватан дили" iki adda rus dilində məqalələrlə çıxış etmişdir.

1911-ci ildə "Molla Nəsrəddin" jurnalının 19 saylı nömrəsində F.B.Köçərlinin müəllifi olduğu M.Ə.Sabir haqqında "Bəradərim Cəlildən çap olunmağını iltimas edirəm" adlı məqalə, "Haqq yolu" qəzetinin 1 saylı nömrəsində "Həyata dəvət" adlı məqalə, "İrşad" qəzetinin 5, 11 və 18 oktyabr tarixli nömrələrində "Yalançı dostluq" və "Hümmət lazımdır" adlı məqalələr, "Məlumat" qəzetinin M.Ə.Sabirin vəfatı münasibətilə "Vəfati-şair" adlı məqaləsi, rus dilində "Каспий" qəzetinin 47 saylı buraxılışında "Мовлуд: Рождения пророка Магомеда" adlı məqaləsi çap olunmuşdur. 1912-ci ildə isə ədibin "Nicat" qəzetinin 26 saylı nömrəsində "Ədəbiyyatda yenilik" adlı məqalə, "İrşad" qəzetinin 27 yanvar tarixli, 23 saylı nömrəsində "İzhari-təəssüf" adlı məqalə, "Məktəb" jurnalının 13 və 21 saylı nömrələrində "Seyid Əbdülqasım Nəbati", "Bakı şəhəri rus-müsəlman məktəbinin 25 illiyi" və "Sultan Məcid Qənizadə" adlı məqalələri, rus dilində "Каспий" qəzetinin 135, 143 və 295 saylı buraxılışlarında "Памяти Мирзы Абдуллы Мамед Ага и Рагим-бек Гаибов", "Яков Семенович Гогебашвили / Фиридун Кочарлинский" və "Из жизни и прессы мусульман", "Новая книга" qəzetinin 23 saylı buraxılışında "Мусульманская жизнь", "Тифлисский листок" qəzetinin 72 saylı buraxılışında "Письмо в редакцию памяти Г.Сундукянца" adlı məqalələri nəşr edilmişdir. 1913-cü ildə "Molla Nəsrəddin" jurnalının 16 sentyabr və 12 oktyabr tarixli, 22 və 23 saylı nömrələrində "Molla Nəsrəddin" jurnalının ədəbi dil sahəsində apardığı siyasətə dair "Ana dili" adlı silsilə məqalələri işıq üzü görmüşdür. Bundan əlavə həmin ildə "İqbal" qəzetinin 23 may tarixli, 391 saylı nömrəsində ədibin müəllifi olduğu "Balalara hədiyyə" kitabının nəşrinə həsr olunmuş "Balalara hədiyyə və yaxud Qafqazda birinci kitab" adlı məqaləsi, rus dilində "Каспий" qəzetinin 27, 31 və 34 saylı buraxılışlarında "С.Д.Тер-Ортюнов", "Памяти народного учителя Мамеда Караева" və "Биография кавказских поэтов и писателей" çap olunmuşdur.

A.O.Çernyayevskinin vəfatının 20 illiyi ilə əlaqədar 7 dekabr 1914-cü ildə «Kaspi» qəzetində F.Köçərli öz müəllimi A.O.Çernyayevskinin «Vətən dili» dərsliyi haqqında məqalə nəşr etdirir. Bu məqalədə o əsəri yüksək qiymətləndirir, istər azərbaycanlı şagirdlərin, istərsə də rusların bu dili öyrənməsində «Vətən dili»ni əvəzsiz mənbə, nümunəvi dərslik hesab edirdi. O, məşhur məqaləsində yazırdı ki, türk-tatar sistemli dillərdə danışan xalqlar arasında ilk dəfə sövti-üsulla dərs keçmək təşəbbüsü bilavasitə həmin dərslik və Qori seminariyası ilə bağlı olmuşdur. O, yazmışdır: «Tamam islam aləmində bu təşəbbüs birinci dəfə Azərbaycanda ortaya çıxmışdır. Ana dili təlimində ondan istifadə edilməsi Azərbaycan məktəb tarixində mühüm pedaqoji hadisə idi. Azərbaycan ziyalılarının bütöv bir nəsli bu kitabdan dərs almışdır» (2., s.10).

Ədibin "İqbal" qəzetinin 28 sentyabr 1914-cü il tarixli 749 saylı nömrəsində İsmayıl bəy Qasprinskiyə həsr olunmuş "İsmayıl bəy Qasprinski" adlı məqaləsi nəşr edilmişdir. 1915-ci ildə "Yeni İqbal" qəzetinin 21 dekabr 188 saylı nömrəsində "Almanların təlim və tərbiyəsi" və 28 dekabr 193 saylı nömrəsində "Məişətimizə dair" adlı məqalələri, "Məktəb" jurnalının 13 saylı nömrəsində "Seyid Əbdülqasım Nəbati" adlı məqaləsi, rus dilində "Каспий" qəzetinin 12 və 282 saylı buraxılışlarında "Трагедия в Кербала" və "А.О.Черняевский" adlı məqalələri, "Петроградские ведомости" qəzetinin 262 saylı buraxılışında "Священная война "Джахат" adlı məqalə çap olunmuşdur.

Ədibin 1916-cı il publisistik fəaliyyə-

tinə dair əlimizə gəlib çatan məqalələrə "İqbal" qəzetinin müxtəlif nömrələrində çap olunmuş məqalələr daxildir. Belə ki, ədibin qəzetin 27 yanvar 218 saylı nömrəsində "Təəssüf", 11 fevral 231 saylı nömrəsində "Almanların təlim və tərbiyəsi" adlı məqaləsi, 15 yanvar 208 saylı nömrəsində "Məişətimizə dair (Təzə il və mövludi-rəsul)", 24 yanvar 215 saylı nömrəsində "Məişətimizə dair (ehtiyac)" və 1 fevral tarixli 222 saylı nömrəsində "Məişətimizə dair (xanımlarımız)" adlı silsilə məqalələri çap edilmişdir. 1917-ci ildə isə "Açıq söz" qəzetinin 15 iyun tarixli sayında yazıçının "İzhari-təəssüf" adlı məqaləsi, rus dilində "Каспий" qəzetinin 88 və 95 saylı buraxılışlarında "Памяти учителя и друга А.Ломоури" və "Из жизни и прессы мусульман", Республика" qəzetinin 62 və 80 saylı buraxılışlarında "Литературный день. Очерки литературы Азербайджанских татар. Мирза Фатали Ахундов" və "Ашура" adlı məqalələri, "Азербайджан" qəzetinin 1918-ci il 10 saylı buraxılışında "Преобразование татарского отделения Закавказской Учительской Семинарии в самостоятель ную семинарию" çap olunmuşdur.

Vətən sevgisi Firidun bəy Köçərlinin 1920-ci ildə ermənilərin gülləsinə tuş gətirmişdir və ədib dünyasını dəyişmişdir. Lakin buna baxmayaraq silahdaşları və varisləri ədibin xalqını işıqlı gələcək naminə yorulmadan irəli aparmaq məqsədilə yandırdığı məşəli sönməyə icazə verməmişdir. Belə ki, ədibin vəfatından sonra Mirzə Ələkbər Sabirin 1922-ci ildə nəşr olunmuş "Hophopnamə" kitabına F.B.Köçərlinin M.Ə.Sabirin xəstəliyi və ona ciddi maddi yardım etmək zəruriyyəti haqqında məktubu daxil edilmişdir (10, s. 409-410).

1958-ci ildə M.F.Axundovun vəfatının 90 illiyi münasibətilə "Ədəbiyyat və incəsənət" qəzetinin 8 mart tarixli sayında "F.Köçərli böyük ədib haqqında" adlı məqalə nəşr edilmişdir. Eyni zamanda 1958-ci ildə Məhəmməd Füzulinin vəfatının 400 illiyi münasibətilə hazırlanmış "Məhəmməd Fuzuli. Elmi-tədqiqi məqalələr" adlı nəşrə F.B.Köçərlinin "Molla Məhəmməd Bağdadi-Füzuli təxəllüs" adlı məqaləsi daxil edilmişdir (7, s.351-364). Bundan əlavə 1962-ci ildə "Azərbaycan qadını" jurnalının 5 saylı nömrəsində çap olunmuş "Görkəmli əbidlər Sabir haqqında" adlı məqalədə F.B.Köçərlinin M.Ə.Sabir haqqında sitatı (3, s.6), "Azərbaycan dili və ədəbiyyatı tədrisi: metodik məqalələ məcmuəsi"nin 2 saylı buraxılışında çap olunan "Görkəmli şəxslər Sabir haqqında" adlı məqalədə (4, s.3-4) və "Azərbaycan müəllimi" qəzetinin 31 may tarixli sayında "Müasirləri Sabir haqqında" adlı məqalədə F.B.Köçərlinin M.Ə.Sabir haqqında müdrik fikirləri verilmişdir. Rus dilində isə ədibin 1964-cü ildə "Ф.Кочарли о русской литературе" məqalə işıq üzü görmüşdür (11, s.215-216).

1966-cı ildə "Ədəbiyyat" qəzetinin 29 mart tarixli sayında F.B.Köçərlinin 1914-cü il sentyabr ayının 28-də "İqbal" qəzetində dərc olunmuş "İsmayıl bəy Qasprinski" adlı məqaləsi təkrar nəşr edilmişdir. Həmin ildə Ə.Mirəhmədovun redaktorluğu ilə Azərbaycan Dövlət Nəşriyyatında işıq üzü görən "Molla Nəsrəddin" adlı nəşrdə F.B.Köçərlinin "Molla Nəsrəddin" jurnalı və Cəlil Məmmədquluzadə haqqında müxtəlif mənbələrdə dərc olunan məqalələri haqqında məlumat verilmişdir (8, s.83, 94, 108, 184, 189, 190, 226, 293, 294, 305).

1967-ci ildə "Sovet kəndi" qəzetində ədibin "Tülkü və Kəklik" hekayəsi nəşr edilmişdir. 1991-ci ildə "Ədəbiyyat" qəzetinin 8 noyabr tarixli sayında "Sizin gələcəkdə müqtədir bir yazıçı olmağınıza şübhəm yoxdur" adlı məqalə nəşr edilir. Bu məqalə özündə Firidun bəy Köçərlinin Yusif Vəzirə məktublarını əks etdirirdi. 1995-ci ildə "Şəhriyar" qəzetinin 26 yanvar tarixli nömrəsində yazıçının "Abbasqulu Ağa Bakıxanov Qüdsi" adlı məqaləsi işıq üzü görmüşdür.

**Ədəbiyyat**

1. Bəşirova G. Firidun bəy Köçərli rus yazıçıları haqqında// «Интернаука», № 8 (30), 2017, s. 92-94.
2. Əhmədov H. İrəvan gimnaziyasının Azərbaycan dili müəllimi: Firidun bəy Köçərli-150 // "Azərbaycan müəllimi", 2014. 10 yanvar, s.10
3. Görkəmli əbidələr Sabir haqqında /Firidun bəy Köçərli // "Azərbaycan qadını", 1962. № 5. s.6
4. Görkəmli şəxslər Sabir haqqında //Azərbaycan dili və ədəbiyyatı tədrisi: metodik məqalələr məcmuəsi. Bakı, 1962. bur.2., s.3-4
5. Hüseynov F., Mir Cəlal. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, Maarif, 1974, 392 s.
6. Köçərli F.B. Nikolay Vasilyevic Qoqol: Anadan olmasının yüzillik yubileyi münasibətilə yazılmışdır // "Tərəqqi", 1909, 18-19 mart
7. Məhəmməd Füzuli. Elmi-tədqiqi məqalələr: vəfatının 400 illiyi munasibətilə. Bakı: Azərbaycan Dovlət nəşriyyatı, 1958.
8. Molla Nəsrəddin. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1966, 563 s.
9. Nəbiyev B. Firidunbəy Köçərli, Bakı, 1963.
10. Sabir M.Ə. Hophopnamə. -Bakı, 1922.
11. Великая дружба азербайджанского и русского народов: С древних времен до наших дней: Документы, письма, статьи, воспоминания, художественные произведения. -Баку: 1964. Т.1.

**Севиль Абдуллаева**

**Публицистическое наследие Фиридун Бек Кочерлинского**

**Резюме**

В статье была предоставлена информация о опубликованный статьи Ф. Б. Кочерли в прессе. Исследование тоже охватывает статьи после его смерти. Кроме того, в статью включены мнения отдельных лиц.

**Sevil Abdullayeva**

**Publisistic herıtage of Firidun Bek Kocharli**

**Summary**

The article provided information about published articles by F.B.Kocharli in the press. The study also covers articles after his death. In addition, the article includes the opinions of outstanding personalities about the writer.